“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq

**QƏRARA ALIRAM:**

1. **“Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi Qaydaları”** təsdiq edilsin (əlavə olunur).

2. **“Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı”** təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

3.1. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Bakı şəhəri, 24 may 2010-cu il.***